Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyinin
2023-cü il 4 aprel tarixli
3-24/3-1-f-63/2023 nömrəli əmri ilə
**təsdiq edilmişdir.**

# Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən uşaq musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərinə direktorların, direktor müavinlərinin və müəllimlərin işə qəbulu QAYDALARI

## 1. Ümumi müddəalar

1.1. "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən uşaq musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərinə direktorların, direktor müavinlərinin və müəllimlərin işə qəbulu Qaydaları" (bundan sonra - Qaydalar) Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyun tarixli 119 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi haqqında Əsasnamə"nin 3.1.45-ci yarımbəndinə uyğun olaraq Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi (bundan sonra – Nazirlik) tərəfindən Nazirliyin sisteminə daxil olan uşaq musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərinə (bundan sonra – məktəblər) işə qəbul prosesində obyektivliyin, şəffaflığın və hüquq bərabərliyinin təmin edilməsi, səriştəli kadrların müəyyən edilərək işə qəbul edilməsi məqsədilə hazırlanmışdır.

1.2. Bu Qaydalar məktəblərdə vakant elan edilmiş vəzifələrə direktorların, direktor müavinlərinin və müəllimlərin mərkəzləşdirilmiş qaydada işə qəbulu və yerdəyişməsi qaydalarını müəyyənləşdirir.

1.3. Bu Qaydalar Azərbaycan Respublikasının Əmək Məcəlləsinə və digər qanunvericilik aktlarına uyğun olaraq hazırlanmışdır.

## 2. İşə qəbulun prinsipləri

2.0. Nazirlik tərəfindən məktəblərə direktorların, direktor müavinlərinin və müəllimlərin işə qəbulu aşağıdakı prinsiplər əsasında həyata keçirilir:

- **qanunçuluq** – işə qəbul zamanı qanunvericiliyin tələblərinə riayət edilməsi, namizədlərlə bağlı məcburi tələblərin normativ hüquqi aktlarla və Nazirlik tərəfindən təsdiq olunmuş hüquqi aktlarla müəyyən edilməsi;
- **obyektivlik** – namizədin vakant vəzifəyə uyğunluğunun bu Qaydalar və digər hüquqi aktlar əsasında qiymətləndirilməsi;
- **qərəzsizlik** – namizədlə yaxın qohumluq (əri (arvadı), valideynləri, qardaşları, bacıları, övladları) və şəxsi tanışlıq əlaqəsi olan şəxslərin müsahibə komissiyasının tərkibinə daxil edilməsinin yolverilməzliyi;
- **bərabərlik** - irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq bütün namizədlərin müsabiqənin keçirilməsi ilə əlaqədar hüquqlarının bərabərliyinə təminat verilməsi;
- **peşəkarlıq** – namizədin potensialının və vakant vəzifəyə (peşəyə) uyğunluğunun müəyyən edilməsi üçün hərtərəfli qiymətləndirilməsi;

- **şəffaflıq** – müsabiqə şərtlərinin və nəticələrinin ictimaiyyətə açıq şəkildə elan edilməsi, şəxslərin müsahibədə müşahidəçi qismində iştirakına şərait yaradılması.

### 3. Direktorların, direktor müavinlərinin və müəllimlərin işə qəbulunun ümumi qaydaları

3.1. Məktəblərə direktorların, direktor müavinlərinin və müəllimlərin işə qəbulu müsabiqə vasitəsilə həyata keçirilir. Müsabiqə test imtahanından və müsahibədən ibarət olmaqla iki mərhələdə təşkil olunur. Direktorların və direktor müavinlərinin, həmçinin müəllimlərin işə qəbulu üzrə müsabiqə hər biri ilə bağlı ildə bir dəfə təşkil olunur. Müstəsna hallarda hər hansı vəzifənin (və ya vəzifələrin) təcili komplektləşdirilməsinə zərurət olduqda həmin vəzifə (və ya vəzifələr) üzrə Azərbaycan Respublikasının mədəniyyət naziri (bundan sonra – nazir) tərəfindən xüsusi qaydada müsabiqə barədə qərar qəbul edilə bilər.

3.2. Müsabiqə proqramı və istifadə edilən ədəbiyyat siyahısı Nazirlik tərəfindən müəyyən edilir. Müəllimlərin işə qəbulu üzrə test proqramı xoreoqrafiya, rəssamlıq, klassik və milli musiqi üzrə differensiallaşdırılmış qaydada hazırlanır.

3.3. Müəllimlərin işə qəbulu üzrə müsabiqədə orta ixtisas və ali təhsil müəssisələrinin müvafiq ixtisaslarını (Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq edilmiş orta ixtisas təhsili, ali təhsilin bakalavriat və magistratura səviyyələri üzrə ixtisasların təsnifatının "Mədəniyyət və incəsənət ixtisasları qrupu" üzrə) bitirərək dövlət nümunəli təhsil sənədi (diplom) almış (xarici dövlətin təhsil müəssisəsini bitirmiş şəxslərə münasibətdə müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilən xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınmasına dair təsdiq edilmiş şəhadətnaməni təqdim etmiş) Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər.

3.4. Direktorların və direktor müavinlərinin işə qəbulu üzrə müsabiqədə ali təhsil müəssisələrinin müvafiq ixtisaslarını (Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq edilmiş ali təhsilin bakalavriat və magistratura səviyyələri üzrə ixtisasların təsnifatının "Mədəniyyət və incəsənət ixtisasları qrupu" üzrə) bitirərək dövlət nümunəli təhsil sənədi (diplom) almış (xarici dövlətin təhsil müəssisəsini bitirmiş şəxslərə münasibətdə müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilən xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınmasına dair təsdiq edilmiş şəhadətnaməni təqdim etmiş), "Mədəni-maarif müəssisələrində olan qulluqçu vəzifələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası"nın tələblərinə uyğun olaraq müvafiq iş stajına malik olan Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər.

3.5. Müəllimlərin işə qəbulu üzrə müsabiqədə sağlamlıq imkanları məhdud olan namizədlərin test imtahanında iştirakı zamanı bilik və bacarıqlarını nümayiş etdirmək üçün səmərəli şərait yaradılması məqsədilə təqdim edilmiş sualların texniki vasitələrin köməyi ilə çatdırılması və ya digər köməklik məqsədilə ayrıca nümayəndənin təhkim olunması təmin edilir.

3.6. Müvafiq tədris ili üzrə kadr ehtiyacını müəyyən etmək məqsədilə məktəblərdə işləyən müəllimlər arasında dərs bölgüsü qanunvericiliyə uyğun aparılmaqla vakant yerlər haqqında məlumat məktəblərin rəhbərliyi tərəfindən tabelik üzrə Nazirliyin Bakı Şəhər Mədəniyyət Baş İdarəsinə və regional mədəniyyət idarələrinə (bundan sonra - regional idarələr), regional idarələr tərəfindən isə Nazirliyə təqdim edilir. Bu məlumatların düzgünlüyü Nazirliyin Aparatının müvafiq struktur bölmələri tərəfindən yoxlanılır.

3.7. Müsabiqə ilə bağlı elan Nazirliyin və regional idarələrin internet informasiya ehtiyatında və sosial şəbəkələr üzərində olan rəsmi səhifələrində yerləşdirilir.

3.8. Müəllimlərin yeni tədris ili üçün dərs yükü məktəb rəhbəri tərəfindən müəllimlər məzuniyyətə buraxılanadək müəyyənləşdirilir. Məktəblərdə işləyən müəllim üçün həftəlik dərs yükü 12 saat (bu zaman həftəlik dərs yükü 3 stavkadan artıq olmamalıdır) müəyyənləşdirilir. Vakant dərs yükü qeyd edilən saatdan az olarsa, həmin saatlar, ilk növbədə müəssisənin ixtisaslı müəllimləri arasında bölüşdürülür. Məktəbdə hər hansı ixtisas üzrə kadr olmadıqda, həmin dərs saatları vakant hesab olunur və müsabiqəyə

çıxarılması üçün təqdim edilir. Sosial məzuniyyətdə olan müəllimin dərs yükü vakant hesab olunmur, həmin müəllimə hər tədris ilinin əvvəlində tarifləşmə cədvəlində müvafiq dərs yükü ayrılır və əmrləşdirilir.

3.9. Məhkəmənin qanuni qüvvəyə minmiş qərarına əsasən pedaqoji fəaliyyət göstərməsi qadağan olunan və məhkumluğu ödənilməmiş, həmçinin fəaliyyət qabiliyyətsizliyi təsdiq edilmiş, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 18 fevral tarixli 57 nömrəli Qərarı ilə təsdiq edilmiş "Pedaqoji fəaliyyətlə məşğul olmağa yol verməyən xəstəliklərin Siyahısı"na əsasən sağlamlıq vəziyyəti ilə əlaqədar pedaqoji fəaliyyət göstərməsi qadağan olunan şəxslərin müsabiqədə iştirakına yol verilmir.

3.10. İnzibati və ya cinayət məsuliyyətinə cəlb edilməsi ilə əlaqədar işdən azad edilmiş şəxslərin işə qəbulu məsələsinə mövcud qanunvericilik və bu Qaydalar əsasında baxılır. İntizam tənbehi tədbiri əsasında işdən azad edilən şəxslər 6 ay müddətində müsabiqəyə buraxılmır.

3.11. Müstəsna hallarda tədris prosesinin fasiləsizliyinin və operativliyin təmin edilməsi məqsədi ilə Nazirliyin sisteminə daxil olan hər hansı məktəbdə mövcud olan vakansiyanın dərhal komplektləşdirilməsinə zərurət olduqda, həmin vakansiya üzrə işə qəbul müsabiqədənkənar qaydada həyata keçirilə bilər. Müsabiqədənkənar işə qəbul müvəqqəti xarakter daşıyır və həmin şəxslərə bağlanmış əmək müqaviləsinin tədris ilinin sonundan artıq müddətə qədər davam etməsinə yol verilmir.

3.12. Elmi dərəcəyə və ya elmi ada malik olan şəxslər müsabiqədənkənar işə qəbul edilir.

## 4. Direktorların və direktor müavinlərinin işə qəbulu üzrə müsabiqənin test imtahanının keçirilməsi qaydası

4.1. Direktorların və direktor müavinlərinin işə qəbulu üzrə müsabiqənin test imtahanının vaxtı və keçiriləcəyi yer barədə məlumatlar imtahanın keçirilməsinə azı 30 gün qalmış Nazirliyin və regional idarələrin rəsmi internet informasiya ehtiyatlarında, sosial şəbəkələr üzərində olan rəsmi səhifələrində elan olunur.

4.2. Test imtahanı zamanı namizədlərə 100 test tapşırığı təqdim olunur və bu tapşırıqların yerinə yetirilməsi üçün 3 saat vaxt ayrılır. Hər bir düzgün cavab 1 balla qiymətləndirilir.

4.3. Test imtahanı namizədin müvafiq vakant vəzifənin fəaliyyət istiqaməti üzrə normativ hüquqi aktlar üzrə biliklərini qiymətləndirmək üçün 50, pedaqogika və pedaqoji psixologiya üzrə biliklərini müəyyən etmək üçün 15, ümumi dünyagörüşünü əhatə edən 20 və namizədin məntiqi düşünmə bacarığını müəyyən etmək üçün 15 test tapşırığından ibarətdir.

4.4. Test imtahanında toplanması mümkün olan maksimum nəticə 100 faizlə ifadə edilir. Direktor vəzifəsinə iddia edən namizədlər imtahanda təqdim edilmiş test tapşırıqlarından 50 faizini düzgün cavablandıraraq 50 bal topladıqda (Bakı, Sumqayıt, Gəncə şəhərləri və Abşeron rayonu üzrə məktəblərdə işə qəbul olunmaq istəyən namizədlər istisna olmaqla) uğur qazanmış hesab edilir.

4.5. Bakı şəhəri üzrə məktəblərdə direktor vəzifəsinə iddia edən namizədlər imtahanda təqdim edilmiş test tapşırıqlarından 70 faizini düzgün cavablandıraraq 70 bal, Abşeron rayonu, Sumqayıt və Gəncə şəhərləri üzrə məktəblərə işə qəbul üçün imtahanda təqdim edilmiş test tapşırıqlarından 60 faizini düzgün cavablandıraraq 60 bal topladıqda uğur qazanmış hesab edilir.

4.6. Direktor müavini vəzifəsinə iddia edən namizədlər üçün bu Qaydaların 4.4-cü və 4.5-ci bəndlərində qeyd olunan keçid ballarına münasibətdə 10 faiz aşağı keçid balı müəyyən edilir.

4.7. Test imtahanı mərhələsinin nəticələri müvafiq arayışla rəsmiləşdirilir.

4.8. Test mərhələsində tələb olunan keçid balını toplayaraq uğur qazanan namizədlər müsahibə mərhələsinə buraxılır.

## 5. Müəllimlərin işə qəbulu üzrə müsabiqənin test imtahanının keçirilməsi qaydası

5.1. Müəllimlərin işə qəbulu üzrə müsabiqənin test imtahanının vaxtı və keçiriləcəyi yer barədə məlumatlar imtahanın keçirilməsinə azı 30 gün qalmış Nazirliyin və regional idarələrin rəsmi internet informasiya ehtiyatlarında, sosial şəbəkələr üzərində olan rəsmi səhifələrində elan olunur.
5.2. Test imtahanı zamanı namizədlərə 70 test tapşırığı təqdim olunur və bu tapşırıqların yerinə yetirilməsi üçün 2 saat vaxt ayrılır. Hər bir düzgün cavab 1 balla qiymətləndirilir.
5.3. Test imtahanı müvafiq vakant vəzifənin fəaliyyət istiqaməti üzrə ixtisas biliklərini qiymətləndirmək üçün 40, pedaqoji bacarıqlarını və tədris prosesində şagirdlərlə davranışını müəyyən etmək üçün 10, ümumi dünyagörüşünü əhatə edən 10 və namizədin məntiqi düşünmə bacarığını müəyyən etmək üçün 10 test tapşırığından ibarətdir.
5.4. Test imtahanında toplanması mümkün olan maksimum nəticə 100 faizlə ifadə edilir. İmtahanda təqdim edilmiş test tapşırıqlarından 50 faizini düzgün cavablandıraraq 35 bal toplamış namizədlər (Bakı, Sumqayıt, Gəncə şəhərləri və Abşeron rayonu üzrə məktəblərdə işə qəbul olunmaq istəyən namizədlər və bu Qaydalara 1 nömrəli Əlavədə nəzərdə tutulmuş ixtisaslara müraciət etmiş namizədlər istisna olmaqla) uğur qazanmış hesab edilir.
5.5. Bakı şəhərinin məktəbləri üzrə işə qəbul üçün imtahanda təqdim edilmiş test tapşırıqlarından 70 faizini düzgün cavablandıraraq 49 bal toplamış namizədlər, Abşeron rayonu, Sumqayıt və Gəncə şəhərləri üzrə məktəblərə işə qəbul üçün imtahanda təqdim edilmiş test tapşırıqlarından 60 faizini düzgün cavablandıraraq 42 bal toplamış namizədlər (bu Qaydalara 1 nömrəli Əlavədə nəzərdə tutulmuş ixtisaslara müraciət etmiş namizədlər istisna olmaqla) uğur qazanmış hesab edilir.
5.6. Bir sıra ixtisaslar üzrə keçid balları bu Qaydalara 1 nömrəli Əlavəyə əsasən müəyyən edilir.
5.7. Test imtahanı mərhələsinin nəticələri müvafiq arayışla rəsmiləşdirilir.
5.8. Test mərhələsində tələb olunan keçid balını toplayaraq uğur qazanan namizədlər müsahibə mərhələsinə buraxılır.

## 6. Müsahibə komissiyasının reqlamenti və müsahibənin keçirilməsi qaydası

6.1. Müsabiqənin müsahibə mərhələsi test imtahanının nəticəsi elan olunduqdan sonra 30 gün müddətində keçirilir. Müsahibənin keçirildiyi vaxt və yer barədə namizədlərə müsahibənin keçirilməsinə azı 5 iş günü qalmış birbaşa və ya Nazirliyin rəsmi internet informasiya ehtiyatı vasitəsilə məlumat verilir.
6.2. Müsahibə namizədin razılığı ilə video çəkiliş aparmaqla keçirilir.
6.3. Müsabiqənin müsahibə mərhələsində namizədin vəzifəyə uyğunluğunu Nazirlik tərəfindən yaradılan Müsahibə Komissiyası (bundan sonra - Komissiya) müəyyən edir. Komissiya müvafiq sahə üzrə mütəxəssislər daxil olmaqla 3 nəfərdən ibarət tərkibdə təşkil edilir. Komissiyaya daxil ediləcək şəxslərin geniş siyahısı nazir tərəfindən təsdiq edilir və hər dəfə müsahibədən 1 gün əvvəl müvafiq müsahibədə iştirak edəcək komissiya üzvləri Nazirlik tərəfindən seçilərək təyin edilir.
6.4. Komissiya üzvləri namizədlərlə müsahibələrin keçirilməsini, qiymətləndirməsini, müsahibə nəticəsində rəylərin hazırlanmasını və aidiyyəti üzrə təqdim edilməsini təmin edirlər.
6.5. Müsahibə komissiyasının üzvləri müsahibə aparılacaq yerə təyin edilmiş vaxtda gəlməli, namizədin və digər komissiya üzvlərinin şəxsiyyətinə və fikirlərinə hörmətlə yanaşmalı, müsahibə zamanı nəzakətli, diqqətli və səbrli olmalı, namizədin vakant vəzifəyə uyğunluğunu qiymətləndirmək üçün vəzifənin tələbləri ilə əlaqədar və bu Qaydaların

aidiyyəti üzrə 6.7-ci və 6.9-cu bəndlərində qeyd edilən meyarlara uyğun suallar verməli, müsahibənin aparılmasına mane olan texniki və digər vasitələrdən istifadə etməməli, o cümlədən rabitə vasitələrini müsahibə otaqlarına gətirməməli və müsahibənin aparılmasına mane olan digər hərəkətlərə yol verməməlidir.

6.6. Hər bir namizədlə müsahibə fərdi qaydada, Azərbaycan Respublikasının dövlət dilində və azı 20 dəqiqə aparılır. Namizədə verilən suallar və tapşırıqlar aydın olmadıqda, namizədin həmin sualları və tapşırıqları aydınlaşdırmaq hüququ vardır.

6.7. Müəllimlərin işə qəbulu üzrə müsabiqənin müsahibə mərhələsində iştirak edən namizədin bilik və bacarıqları aşağıdakı meyarlar üzrə qiymətləndirilir:

6.7.1. aidiyyəti üzrə əsərin ifası, üzdən oxunması və təhlili (xoreoqrafiya və təsviri incəsənət ixtisasları üzrə müvafiq bacarıqların nümayişi);

6.7.2. peşə hazırlığı - müvafiq alətin, ixtisasın və ya sahənin yaranma və inkişaf tarixi, görkəmli ifaçılar və məktəblər, musiqi nəzəriyyəsi və tarixi üzrə bilikləri, müvafiq ixtisas üzrə dərsliklər və ədəbiyyat;

6.7.3. digər zəruri olan keyfiyyətləri - namizədin emosional sabitliyi, pedaqoji keyfiyyətləri, yaradıcı xüsusiyyətləri, özünüifadə və ünsiyyətqurma bacarıqları.

6.8. Direktorlar və direktor müavinlərinin işə qəbulu üzrə müsabiqənin müsahibə mərhələsində namizəd məktəbin fəaliyyətinin təkmilləşdirilməsi üzrə öz Proqramını təqdim etməlidir. Proqramda məktəbin gələcək vəziyyətinin təsviri, sahə üzrə problemlərin həlli yolları, müvafiq sahənin və məktəbin inkişafını təmin edəcək tədbirlər və fəaliyyətlər planı, mövcud resurslardan istifadə etməklə daha yüksək nəticə əldə etmək üçün təkliflər, Proqramın həyata keçirilməsindən gözlənilən nəticələr öz əksini tapmalıdır.

6.9. Direktorların və direktor müavinlərinin işə qəbulu üzrə müsabiqənin müsahibə mərhələsində iştirak edən namizədin vakant vəzifəyə uyğunluğu aşağıdakı meyarlar əsasında qiymətləndirilir:

6.9.1. təqdim etdiyi Proqramın aktuallığı, səmərəliliyi, sistemliliyi, reallığı, ətraflı və detallı işlənilməsi və tərtibatı;

6.9.2. peşə hazırlığı - namizədin vakant vəzifənin tutulması şərtlərinə uyğun olaraq nəzəri və qanunvericilik biliklərini tətbiqetmə bacarığı, iş təcrübəsi, vəzifənin tutulma şərtlərinə uyğun olaraq informasiya texnologiyaları üzrə bilikləri, rəhbər vəzifələr üçün idarəetmə və təşkilatçılıq, o cümlədən qərar vermə bacarığı;

6.9.3. digər zəruri olan keyfiyyətləri - namizədin emosional sabitliyi, məsuliyyətliliyi, məqsədyönlülüyü, dürüstlüyü, özünütənqid, nüfuzetmə, təhliletmə, ünsiyyətqurma bacarıqları.

6.10. Müsahibənin nəticəsi ilə razı olmayan namizədlər nəticələr elan olunduqdan sonra 5 iş günü müddətində Nazirliyə şikayət verə bilərlər. Şikayətlərə baxılması üçün nazirin əmri ilə təsdiq edilən nazir müavininin sədrliyi ilə aidiyyəti struktur bölmələrin əməkdaşlarından və müvafiq sahə üzrə mütəxəssislərdən ibarət tərkibdə Komissiya yaradılır. Şikayətlər 10 iş günü ərzində Komissiya tərəfindən araşdırılır və müvafiq qərar qəbul edilir. Namizəd bu qərardan qanunvericiliklə müəyyən edilmiş qaydada şikayət verə bilər.

6.11. Üzürlü səbəb olmadan təyin olunmuş vaxtda müsahibədə iştirak etməyən namizədlər üçün təkrar müsahibə keçirilmir. Üzürlü səbəbdən müsahibədə iştirak etməyən namizədlə təkrar müsahibənin keçirilməsinə bu Qaydaların 6.10-cu bəndinə uyğun yaradılmış Komissiyanın razılığı olduğu halda yol verilir.

6.12. Müsabiqənin nəticələri elan olunduqdan sonra uğur qazanmış və təyinat alan namizədlər qanunvericiliyə uyğun olaraq müvafiq sənədlərini aidiyyəti üzrə təqdim edirlər.

6.13. İşəgötürən 15 (on beş) iş günü ərzində müsabiqədə uğur qazanan və təyinat alan namizədi 3 (üç) ay sınaq müddəti ilə müvafiq vəzifəyə təyin edir. Sınaq müddəti ərzində tərəflər arasında əmək münasibətləri əmək qanunvericiliyinin tələblərinə uyğun olaraq tənzimlənir. Sınaq müddəti ərzində əmək müqaviləsi pozulmayıbsa, müddət

qurtardıqdan sonra işəgötürən həmin şəxsin daimi işə qəbul edilməsi haqqında əmr verir və onunla müvafiq əmək müqaviləsi bağlayır.

6.14. İşə qəbul üzrə keçirilən müsabiqədə uğur qazanan, lakin vəzifəyə təyin edilməyən namizədlər 2 il müddətinə ehtiyat kadrlar siyahısına daxil edilirlər. Bu müddətdə müvafiq ixtisas üzrə vakant vəzifə yaranarsa həmin namizədlər onların razılığı ilə bu Qaydaların 7.6-cı bəndi nəzərə alınmaqla nəticələrinə uyğun olaraq müsabiqədənkənar vəzifəyə təyin edilə bilərlər.

## 7. Qiymətləndirilmə və balların hesablanması

7.1. Müsahibədə namizədin bacarıqları balla qiymətləndirilir. Bu Qaydalarda qeyd edilən hər bir qiymətləndirmə meyarı üzrə ən yüksək bal 10, ən aşağı bal 2-dir. Hər bir meyar üzrə verilmiş qiymətlər toplanaraq, namizəd barədə ümumi bal müəyyən edilir və yekun nəticə rəsmiləşdirilir.

7.2. Yekun nəticə aşağıdakı düstur əsasında hesablanılır:

$$\frac{\text{Ümumi balların cəmi}}{\text{Komissiya üzvlərinin sayı}} = \text{Nəticə}$$

Məsələn: üç meyar üzrə hər bir komissiya üzvü tərəfindən verilən ümumi ballar: 23 bal; 25 bal; 26 bal. Nəticənin hesablanması: (23 + 25 + 26) : 3 = 24,7

7.3. Müsahibədə 21 və daha çox bal toplamış namizəd uğur qazanmış hesab edilir və təyinatla bağlı qərar verilməsi üçün imtahan nəticələri Nazirliyə təqdim olunur.

7.4. Qiymətləndirmə zamanı komissiya üzvlərinin hüquqları bərabərdir və hər kəs öz qərarının düzgünlüyünə görə məsuliyyət daşıyır.

7.5. Müsahibə komissiyasının üzvlərinin namizəd barəsində verdiyi ballar arasında əhəmiyyətli fərq olduqda və müsahibənin keçirilməsi zamanı obyektivlik və şəffaflıq prinsipləri pozulduqda müsahibənin nəticəsi ləğv edilir və komissiyanın tərkibi yenidən təşkil edilməklə namizədlə təkrar müsahibə keçirilir.

7.6. İşə qəbulla bağlı qərar verilərkən müsabiqədə ən yüksək nəticə göstərən namizədə üstünlük verilir. Müsabiqə nəticəsi eyni olan namizədlər arasında seçim edilərkən aşağıdakı şəxslərə üstünlük verilir:

7.6.1. şəhid ailəsi üzvlərinə və müharibə iştirakçılarına;

7.6.2. Nazirliyin təcrübə və ya könüllülük proqramlarını bitirən şəxslərə;

7.6.3. test imtahanında daha çox bal toplamış şəxslərə, ali və orta ixtisas təhsilli namizədlər arasında seçim zamanı test imtahanında eyni bal toplanıldıqda ali təhsilli namizədə, keçid balını toplamış namizədlərin hamısı ali təhsilli və ya orta ixtisas təhsilli olduqda ixtisas bilikləri üzrə daha çox bal toplayan namizədlərə, ixtisas bilikləri üzrə toplanılan bal eyni olduqda pedaqoji iş stajı daha çox olan, pedaqoji iş staj eyni olduqda isə diplom göstəriciləri daha yaxşı olan namizədə üstünlük verilir.

## 8. Direktorların, direktor müavinlərinin və müəllimlərin iş yerinin dəyişdirilməsi

8.1. Mədəniyyət Nazirliyinin tabeliyindəki məktəblərdə müddətsiz əmək müqaviləsi ilə işləyən direktorların və direktor müavinlərinin bu Qaydaların işə qəbulla bağlı müsabiqə şərtləri eyni olan ərazilər daxilində iş yerinin dəyişdirilməsi məsələsinə müvafiq regional idarənin təqdimatına əsasən Nazirlik tərəfindən, məktəblərdə müddətsiz əmək müqaviləsi ilə işləyən müəllimlərin tədris ili ərzində bu Qaydaların işə qəbulla bağlı müsabiqə şərtləri eyni olan ərazilər daxilində iş yerinin dəyişdirilməsi məsələsinə Nazirliklə razılaşdırmaqla müvafiq regional idarələr tərəfindən fərdi qaydada baxılır.

8.2. Yerdəyişmə müvafiq vakant vəzifələr olduğu təqdirdə həyata keçirilir. Yerdəyişmə ilə bağlı qərar qəbul edilərkən şəhid ailə üzvləri və müharibə iştirakçıları üstünlük hüququna malikdirlər.

8.3. Digər hallarda direktorların, direktor müavinlərinin və müəllimlərin yerdəyişməsi bu Qaydaların 6.3-cü bəndinə uyğun yaradılmış Komissiyanın qərarına əsasən müsahibə yolu ilə həyata keçirilir.
8.4. İşə qəbul üzrə müsabiqədə uğur qazanaraq vəzifəyə təyin edilən şəxsin yerdəyişmə ilə bağlı müraciətinə təyin edildiyi müddətdən 2 il ərzində baxılmır. Azərbaycan Respublikasının Əmək Məcəlləsində işçilərin iş yerinin və orta əmək haqqının saxlanıldığı hallar istisna olmaqla işçinin işdən ayrıldığı digər dövrlər bu müddətə daxil edilmir.

## 9. Qaydaların pozulmasına görə məsuliyyət

9.1. Direktorların, direktor müavinlərinin və müəllimlərin işə qəbulu ilə əlaqədar bu Qaydaların tələblərinə riayət edilməməsi, müsabiqədən kənar işə qəbulun həyata keçirilməsi qanunvericilikdə başqa hal nəzərdə tutulmayıbsa intizam məsuliyyətinə səbəb olur.
9.2. Namizədlər işə qəbulla bağlı müraciətlərində qeyd etdikləri məlumatların, təqdim etdikləri sənədlərin doğruluğuna görə məsuliyyət daşıyırlar. Müsabiqənin hər hansı mərhələsində namizədin ərizəsindəki məlumatlarının düzgün olmadığı, qəsdən səhv və ya təhrif edilmiş məlumatların, saxta sənədlərin təqdim edildiyi və ya müsabiqə ilə bağlı müəyyən edilmiş tələblərə uyğun olmadığı aşkar edilərsə nəticələri ləğv edilir.
9.3. Müsabiqə tapşırıqlarının və onların həllinə dair materialların foto və video çəkilişinin həyata keçirilməsi, habelə müsabiqə tapşırıqlarına aid şəkil və video materialların internetdə, sosial şəbəkələrdə və ya digər açıq mənbələrdə yerləşdirilməsi, müsabiqə tapşırıqlarına və ya onların həllinə dair məlumatların kütləvi informasiya vasitələrinin nümayəndələrinə ötürülməsi qadağandır.

**Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən uşaq musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərinə direktorların, direktor müavinlərinin və müəllimlərin işə qəbulu QAYDALARI"na**
1 nömrəli Əlavə

| **№** | **İxtisaslar** | **Keçid balları** |
|---|---|---|
| **Bakı şəhəri üzrə:** | | |
| 1. | Simli alətlər (violonçel, kontrabas) | 44 |
| 2. | Klassik və milli nəfəsli alətlər | 44 |
| 3. | Xoreoqrafiya | 44 |
| **Sumqayıt və Gəncə şəhərləri, Abşeron rayonu üzrə:** | | |
| 1. | Simli alətlər (violonçel, kontrabas) | 37 |
| 2. | Klassik və milli nəfəsli alətlər | 37 |
| 3. | Xoreoqrafiya | 37 |
| **Digər regionlar üzrə:** | | |
| 1. | Simli alətlər | 30 |
| 2. | Klassik və milli nəfəsli alətlər | 30 |
| 3. | Xoreoqrafiya | 30 |